# Daim xalqın arasında, imkansızın yanında və körpə təbəssümü ilə üz-üzə





**Müasir Azərbaycan xanımlarının rəmzinə çevrilmiş, genişmiqyaslı ictimai-siyasi fəaliyyəti ilə liderlik səviyyəsinə ucalmış Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu məqama yetişməsinin, xüsusən, ümumxalq məhəbbəti qazanmasının bir çox səbəbi vardır. Həmin səbəblərdən ən mühümü isə qədim yunan filosofu Sirus Pubillusun dediyi amillərlə bağlıdır. Filosof yazırdı ki, heç kəs dünyaya dahi və ya cahil kimi gəlmir. İnsanları düşdükləri mühit, yaşadıqları həyat tərzi və ətrafda baş verənlər yetişdirir.**

Bu baxımdan yanaşdıqda Mehriban xanım Əliyevanın bəxti dəfələrlə gətirmişdir. Belə ki, o, görkəmli alimlər Aida İmanquliyeva və Arif Paşayevin ailəsində dünyaya gəlmiş, babaları -- XX əsr Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindən olan Mir Cəlal Paşayevin və Nəsir İmanquliyev kimi müqtədir söz-sənət adamının tərbiyəsini almış, xalqın ümummilli lideri Heydər Əliyevin ailəsində mükəmməl həyat yolu keçmişdir. Yəni onun kamil vətəndaş və müdrik siyasətçi kimi yetişməsində təkcə genetik əsas və təhsil deyil, həm də yaşadığı mühitin səviyyəsi mühüm rol oynamışdır.

O, özünün ictimai-siyasi fəaliyyəti, liderliyi, xeyriyyəçiliyi və milli- mənəvi dəyərlərimizə bağlılığı ilə milyonlarla insanın rəğbətini, hörmət və ehtiramını qazanmışdır. Ancaq adi vətəndaşlar onun sadəliyini daha çox qiymətləndirirlər. Təsadüfi deyil ki, Mehriban Əliyeva özü üçün xüsusi olan gündə -- 55 yaşının tamam olduğu tarixdə də sadə insanların arasında olmağı üstün tutdu.

O, avqustun 26-da qızı Leyla Əliyeva ilə birlikdə Bibiheybət ziyarətgah kompleksini – imam övladının dəfn olunduğu məkanı ziyarət edərkən milli-mənəvi dəyərlərimizə necə ehtiramla yanaşdığını nümayiş etdirmişdi. Xatırladaq ki, VII əsrin yadigarı, müqəddəs qəbirlərin sayına görə İslam dünyasının üçüncü ziyarətgahı sayılan Bibiheybətdə Peyğəmbər (s.) nəslinin dörd nümayəndəsi uyuyur. Mehriban xanımın rəhbərlik etdiyi Heydər Əliyev Fondu milli-mənəvi dəyərlərimizin qorunması, onların təbliği, dünyaya çatdırılması istiqamətində çox mühüm işlər görür. Qədim məscidlərimizin bərpası, yeni müasir məscid komplekslərinin inşası bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

Birinci vitse-prezidentin avqustun 26-da Bilgəhdəki pensiyaçılar üçün sosial xidmət müəssisəsinə baş çəkməsi də kütləvi informasiya vasitələrinin xüsusi marağına səbəb oldu. Mehriban Əliyeva əvvəlcə burada sağlamlığı məhdud insanların yaşayışı ilə maraqlandı, onlarla söhbət etdi. Müəssisə sakinləri ilə görüşdə ahıl insanlar dövlətin onlara diqqət və qayğısından razılıqlarını bildirdilər, rahat yaşamaları üçün hər cür şəraitin yaradıldığını vurğuladılar. Qeyd olundu ki, müəssisənin sakinləri arasında yaradıcı insanlar, müxtəlif sənət sahibləri var. Burada yaşayan ahıllar müxtəlif səhiyyə ocaqlarında müayinə edilir, onlar üçün mütəmadi olaraq konsertlər, bayram şənlikləri təşkil olunur. Dövlətimiz onların ən böyük himayəçisidir. Ahılların sosial müdafiəsinin gücləndirilməsi, sağlamlıqlarının qorunması məqsədilə ölkəmizdə davamlı tədbirlər həyata keçirilir.

Mehriban xanımın həmin gün paytaxtın Sabunçu rayonunda 260 saylı, Binəqədi rayonunda 141 saylı körpələr evi-uşaq bağçalarının açılışlarında, həmçinin valideyn himayəsindən məhrum və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün Heydər Əliyev Fondunun "Dalğa Beach" istirahət mərkəzində təşkil etdiyi növbəti əyləncə və istirahət proqramında iştirak etməsi isə onun körpə təbəssümünü, uşaq sevincini, ölkəmizin və xalqımızın gələcəyi olan yeniyetmələrin uğurlarını nə dərəcədə sevdiyinin, daim onlara qayğı göstərmək istəyinin təzahürü idi.

Ölkə ictimaiyyətinin Mehriban Əliyevaya olan inam, etimad və rəğbəti hamya məlumdur. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Rusiya Federasiyası hökumətinin Sədri Dmitri Medvedev və Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenkonun Birinci vitse-prezident Mehriban Əliyevaya ad günü münasibətilə təbrik məktubu göndərmələri isə ona qonşu ölkədə olan hörmət və ehtiramın göstəricisi idi. Prezident Vladimir Putinin məktubundakı "Dost Azərbaycanın qarşısında duran irimiqyaslı sosial-iqtisadi vəzifələrin həllində Sizin mühüm rolunuzu xüsusi qeyd etmək istəyirəm" – fikiri Mehriban xanımın fəaliyyətinə xaricdən verilən yüksək qiymətlərdən biri idi.

Bu əlamətdar gündə qələmə aldığımız sətirləri iki mühüm sitatla yekunlaşdırmaq istəyirik. İlk sitatı Prezident İlham Əliyevin yeni təyin olunmuş Birinci vitse-prezident Mehriban Əliyevanı Təhlükəsizlik Şurasının üzvlərinə təqdim edərkən söylədiyi fikirlərdən seçmişik. Dövlət başçımız demişdi:

"Təmsil etdiyi dairənin sosial, iqtisadi problemlərinin həlli işində çox böyük addımlar atıb. Seçicilərlə daim təmasdadır. Onun deputat kimi əsas fəaliyyəti seçicilərin problemlərinin həlli ilə bağlıdır. Eyni zamanda, deputat kimi Mehriban Əliyevanın çox geniş fəaliyyəti də var və bu fəaliyyət nəticəsində müxtəlif ölkələrdə qazandığımız dostların sayı artıb. 2004-cü ildən bu günə qədər Mehriban Əliyeva ulu öndərin adını daşıyan Heydər Əliyev Fondunun prezidentidir. Heydər Əliyev Fondu onun rəhbərliyi altında nəinki Azərbaycanın, hesab edirəm ki, regionun ən böyük və nüfuzlu ictimai təşkilatına çevrilib. Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir. Fondun təşəbbüsü ilə bir çox önəmli layihələrə, proqramlara start veilib. Onların arasında xüsusilə "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı qeyd edilməlidir. Məhz bu proqramın başlanması nəticəsində son 3 ildə ölkəmizdə 3 mindən çox məktəb əsaslı təmir olunub və ya yenidən tikilib. Digər layihələr ölkəmizin hərtərəfli inkişafına xidmət göstərmişdir".

İndi isə ikinci sitatı seçdiyimiz mənbə barədə. Trend İnformasiya Agentliyi avqustun 26-da Birinci vitse-prezident Mehriban xanım Əliyevaya müraciət edərək, ondan özü, fəaliyyəti, ailəsi, onun həyati dəyərləri barədə danışmasını xahiş etmişdir. Mehriban Əliyevanın Trendə göndərdiyi məktubundakı bu sətirlər bir mətbuat təmsilçisi kimi məni olduqca məmnun etdi: "Xoşbəxtəm ki, həyatımın böyük hissəsini müasir Azərbaycanın dahi şəxsiyyəti Heydər Əliyevin yanında yaşamışam. Bu nəhəng şəxsiyyətə hədsiz ehtiram, heyranlıq, pərəstiş və sevgi hissini ömrümün sonunadək yaşadacağam. Heydər Əliyev güc və qüdrət, hədsiz intellekt, mətin iradə, yüksək əxlaq və ləyaqət, sonsuz vətənpərvərlik, doğma torpağa və xalqa məhəbbət rəmzidir. O, əlçatmaz ideal və mənim həyatımda əsas Müəllimdir".

*İttifaq MİRZƏBƏYLİ,*
*"Xalq qəzeti"*